***Böyük Qafqazın cənub yamacında 1375 metr hündürlükdə yerləşən Lahıc qəsəbəsi özünəməxsus tarixi simasını saxlayıb. Qəsəbə memarlıq sənətinin orijinal abidəsi kimi "Böyük İpək Yolu" Beynəlxalq Turist marşrutuna daxil edilmiş, XIV-XV əsr abidəsi kimi dövlət tarixi-mədəni qoruğu statusuna malik olmuşdur.***

Qafqazda orta əsrlərdən məşhur olan sənət-ticarət mərkəzi burada fəaliyyət göstərmiş, soyuq silahın və qab-qacağın misdən hazırlanması və ornamentlərlə bəzədilməsi ilə məşhur olmuşdur.

Lahıc qəsəbəsi XVIII-XIX əsrlərdə Azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən olub. Qəsəbədə misdən hazırlanan, mürəkkəb və incə naxışlarla bəzədilən dolça, məcməyi, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və sair məmulatlar ölkəmizin hər yerində olduğu kimi, Orta Asiyada, Rusiyada, Gürcüstanda,

bilmirdim, burada isə özümü sözün həqiqi mənasında xoşbəxt sayıram. 7-8 yaşımdan misgər emalatxanalarında olmuşam və demək olar ki, bütün uşaqlığım burada keçib. Atamgil 4 qardaş idi, 3-ü bu sənəti seçmişdi, sonra sənəti biz davam etdirməyə başladıq. İki oğlum ali təhsil alaraq başqa işdə çalışsalar da misgərliyi yaxşı bacarırlar.

Keçmiş sovetlər dövründə bir müddət misgərliyə son dərəcə soyuq münasibət bəslənildiyindən bu sahədən uzaqlaşmaq istəsəm də bacarmadım. Gördüm ki, başqa sahədə özümü tapa bilmirəm, yenidən bu peşəyə qayıtdım.

Bayramlarla əlaqədar keçirilən el şənliklərində 20 ildən artıqdır ki, misgər kimi iştirak etdiyinə toxunan Nəzər kişi dedi ki, ustalar arasında keçirilən yarışlarda mən də iştirak edirdim. Yaxşı yadımdadır, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin iştiraki ilə keçirilən sərgidə 20 usta arasında qalib oldum və qiymətləndirildim. Həmin vaxtdan sonra tədbirlərə mütəmadi dəvət alıram və fəal iştirak etməyə çalışıram.

sonra evimə gəldilər. Bu hisslər sözlə ifadə edilə bilməz. Bu, mənim və ailə üzvlərimin həyatında ən gözəl və ən unudulmaz hadisə oldu. Bu, həm də dövlət başçısının sənətə, sənətkara, kəndliyə, eləcə də vətəndaşa verdiyi ən yüksək dəyərin göstəricisidir.

Dövlət başçısı bizim həyətdə olarkən şəkil çəkdirmək üçün toplaşmışdıq. Qonşuluqda olan qadınlardan biri dedi ki, gözlərimə inana bilmirəm, bu Prezidentdirmi? Bu vaxt dövlət başçısı dedi ki, bəli, xanım, mənəm, siz də yaxın gəlin. Bunu eşidən kimi qəsəbəmizin qadınları sevinc hissi ilə bizə qoşuldular.

Birinci vitse-prezident Mehriban xanım qızları ilə birlikdə 2019-cu ildə qəsəbəmizə gələrkən qonağımız oldu. Xeyli səmimi söhbətdən sonra Mehriban xanım vəziyyətimizlə maraqlandı. Bu vaxt qonşularla birlikdə dedik ki, yaxınlıqda olan məscid 1791-ci ildə tikildiyindən indi təhlükəli vəziyyətə dü-

# Azərbaycanı dünyada tanıdan misgər



## "Tərəqqi" medallı Nəzər Əliyev 200 illik ənənəni davam etdirir

Türkiyədə, İranda və digər ölkələrdə də tanınıb.

Yerli ustaların yaratdıqları maddi-mədəniyyət nümunələri hazırda da dünyanın ən məşhur muzey və kolleksiyalarının ekspozisiyalarını bəzəyir.

1717-1718-ci illərdə usta Nəcəfqulunun düzəltdiyi samovar mütənasibliyi, formasının gözəlliyi, üzərindəki bəzəkləri ilə şöhrət qazanıb. XIX əsrin ortalarında qəsəbədə 200-dək misgərlik emalatxanası fəaliyyət göstərib.

**Məşhur misgərlərdən olan Nəzər Əliyev** bildirdi ki, misgərliyin vətəni kimi tanınan qəsəbə dünyada qədim sənət mərkəzi olaraq indi də diqqəti cəlb edir. Çünki qəsəbədə olan mis emalatxanaları, "misgər bazarı" əksər ölkələrdə də tanınır.



XIX əsrin sonlarında ucuz rus fabrik məhsullarının gətirilməsi ilə emalatxanaların sayı nəzərəçarpan dərəcədə azalsa da, artıq yenidən tarixi ənənə dirçəldilib. Dövlət dəstəyi nəticəsində ənənəvi emalatxana qurğuları və alətləri, mis tökmə, döymə və oyma bəzəklər ənənəsi qorunub saxlanılır.

"Lahıcın misgərlik sənəti" 30 noyabr - 4 dekabr 2015-ci il tarixində Namibiyada keçirilmiş Qeyri-maddi-mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Sənətimizin UNESCO-nun siyahısına daxil edilməsi xalqımızın qədim mədəniyyət ənənələrinin qorunub saxlanmasına, gələcək nəsillərə ötürülməsinə və qəsəbənin sosial-iqtisadi inkişafına töhfəsini verir.

Nəzər kişi dedi ki, yaxşı yadımdadır, babalarımız da bu sahədə tanınan ustalardan olub. Bir sözlə, 2 əsrə yaxındır ki, misgərlik nəslimizin qazanc yeri sayılıb. Ulu babalarımdan sonra sənət atama və əmilərimə keçib. Mən də ağlım kəsəndən bu sənətin içində olmuşam və uşaq vaxtından ona bağlanmışam. Təhsil aldıqdan sonra bir müddət müəllim işləsəm də yenidən ənənəvi ailə sənətinə qayıtmalı oldum. Çünki başqa işdə rahatçılıq tapa

Ötən il Bakıda keçirilən COP29-da ilk gündən sona qədər iştirak etmişəm və misgərliklə bağlı master-klasım olub və bu sənətin incəliklərini geniş şəkildə təbliğ etmişəm. Bu tədbirlərin birindən hazırlanmış yazı əməkdaşı olduğunuz "Respublika" qəzetinin 19 noyabr 2024-cü il tarixli sayında "Misgərlik sənəti incilərinin təqdimatı" başlığı altında çap olunduğunu biləndə xeyli şad oldum, təcili qəzeti aldım və muzeyimdə xoş xatirə kimi saxlayıram.



1962-ci ilin iyunun 25-də Lahıcda anadan olan Nəzər kişi misgərlik sənəti ilə dünyanı gəzir və tanınır. Səfərlərdə görüşdüyü şəxslər, getdiyi ölkələr haqqında danışmaq üçün diqqətimizi muzeyində son dərəcə səliqə ilə saxladığı şəkillərə yönəltdi. Muzeydə divara xeyli sayda şəkil vurulub. İkinci mərtəbədə isə qədim dövrü əhatə edən misgərlik sənətinin inciləri toplanıb.

Şəkillərdən göründüyü kimi, Nəzər kişi xeyli ölkələrdə misgər kimi çoxsaylı tədbirlərdə iştirak edib. Məlum olur ki, Almaniya, Fransa, Rusiya, Avstriya Gürcüstan və digər ölkələrə səfər edən həmsöhbətimin evində də xeyli qonaqları olub.

Deyir ki, Bakıda keçirilən tədbirlərin birində dövlət başçımızla görüşdüm və Prezidentimizi Lahıca, evimizə qonaq dəvət etdim. Cənab Prezident də dedi ki, mütləq sənin qonağın olacağam.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəsəbəmizə təbii qazın verilməsi mərasimində iştirak etdikdən sonra dəvətimi qəbul edərək qonağımız oldular və ailə üzvlərimizlə birlikdə xatirə şəkli çəkdirdik. Əvvəlcə emalatxanama,

şüb. Bunu bilən kimi Mehriban xanım tapşırıq verdi və dedi ki, narahat olmayın, Heydər Əliyev Fondunun vəsaiti hesabına məscid təmir olunacaq. Belə də oldu və göstəriş qısa vaxt ərzində həyata keçirildi və 2022-ci ildə məscidin təmirdən sonra açılışı oldu.

Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, tanınmış misgər Nəzər Əliyev DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının misgərlik emalatxanasında benefsiarlara bu sənətin tarixi haqqında maraqlı məlumatlar da verir. Beləliklə də qədim sənətkarlıq mərkəzi kimi Lahıcda misgərlik sənəti nəsildən-nəslə ötürülərək günümüzə qədər yaşadılıb.

Nəzər kişi bir misgər olaraq turizm sahəsində də peşəkarlığı ilə seçilir. Müvafiq nazirliklərin dəvəti ilə mütəmadi olaraq el şənliklərində və xarici ölkələrdə keçirilən tədbirlərdə və seminarlarda fəal iştirak edir. Prezident İlham Əliyevin 2 oktyabr 2023-cü il tarixli Sərəncamı ilə Nəzər Əliyev Azərbaycanda turizm sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

Nəzər kişi sonda dedi ki, dünyanın əksər ölkələrində böyük rəğbətlə qarşılanan misgərlik peşəsi dövlət başçımızın dəstəyi ilə tarixi ənənəsini bərpa etməklə yeni bir inkişaf dövrünə qədəm qoyub. Bu səbəbdən də qəsəbədə tarixi ənənəyə maraq durmadan artır. Həm tarixi sənətimizlə ölkəmizi dünyada tanıdırıq, həm dolanışıq səviyyəmiz yüksəlir, həm arzularımız reallaşır, həm də misgərliyi yaşadırıq.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 23 aprel (№ 80).-